# Füzulidə Vətən müharibəsi şəhidlərinin xatirəsi anılıb





**Vətən uğrunda canlarını fəda edən şəhidlərdən biri olan Şamil Əliyev və Nurlan Rzayevin anım günündə məzarları ziyarət olunub. Müqəddəs amal uğrunda şəhadətə ucalan şəhidlərin şərəfli həyatından bir daha söhbət açılıb.**

AZƏRTAC xəbər verir ki, şəhidlərin anım mərasimində ailə üzvləri ilə bərabər, rayon icra hakimiyyətinin əməkdaşları, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Füzuli rayon şöbəsinin nümayəndələri, təhsil və mədəniyyət işçiləri, şəhid ailələri, qazilər, kənd sakinləri və ziyalılar iştirak ediblər.

Şamil Xançoban oğlu Əliyev 1996-cı il martın 20-də Füzuli rayonunun Böyük Bəhmənli kəndində anadan olub. Şamil həm də vətənpərvərliyi ilə seçilib. Böyüyəndə hərbçi olmağı arzu edən Şamil həqiqi hərbi xidmətə də ruh yüksəkliyi ilə yollanıb. Kəşfiyyatçı olaraq xidmətini fərqlənmə ilə bitirən Şamil daha sonra ordu sıralarında xidmət etmək üçün müraciət edib. 2015-ci ildən müddətdən artıq xidmətçi kimi Vətən keşiyində dayanan Şamil Xüsusi Təyinatlı Qüvvələrdə kəşfiyyatçı olaraq xidmətini davam etdirib. 2016-cı ilin Aprel döyüşlərində də Şamil qəhrəmanlığı və şücaəti ilə seçilib. Xidməti dövründə də bir sıra fəxrli fərmanlarla təltif edilib. 2020-ci il sentyabr ayının 27-də düşmən təxribatının qarşısının alınması məqsədilə ordumuzun əks-hücumunda Şamil də ön sıralarda döyüşə qoşulub. Füzuli, Cəbrayıl, Xocavənd istiqamətlərində bir çox uğurlu tapşırıqda iştirak edib. Döyüşlərdən birində yaralanan Şamilə müalicə üçün 15 gün müddətində xəstəxana şəraitində qalmağı tapşırsalar da, o öz istəyi ilə yenidən döyüşlərə qoşulub. Oktyabrın 16-da Şamil qəhrəmancasına döyüşərək şəhid olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, Şamil Əliyev ölümündən sonra lll dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Nurlan Yusif oğlu Rzayev 1991-ci il mayın 23-də Füzuli rayonunun Aşağı Veysəlli kəndində dünyaya göz açıb. Nurlan hələ iki yaşında olarkən ailəsi ilə birlikdə doğma yurdundan məcburi köçkün düşüb. Nurlan Rzayevin atası Yusif Rzayev də I Qarabağ müharibəsinin iştirakçısı olub. Vətən həsrətinin nə olduğunu yeniyetmə çağlarından anlayan Nurlan 2014-cü ildə hərbi xidmətə də ruh yüksəkliyi ilə yollanıb. Xidmət zamanı da nizam-intizamı ilə fərqlənib. Vətən müharibəsi başlanan tarixdən könüllü olaraq ordu sıralarına qatılıb və Füzuli, Xocavənd, Cəbrayıl, Qubadlı rayonları istiqamətlərində gedən döyüşlərdə iştirak edib. İşğal altında olan torpaqlarımızın azad olunmasında böyük fədakarlıq göstərib. Oktyabrın 17-də Qubadlı rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlib və Beyləqan rayonunun Şəfəq qəsəbəsi qəbiristanlığında dəfn edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, Nurlan Rzayev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Azərbaycan.- 2025.- 21 oktyabr (№ 225).- S.10.